# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci il üçün Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2011-2(4)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanda milli parkların ətraf mühitə təsirinin qiymətləndirilməsi və davamlı inkişaf sənədinin hazırlanması (Göygöl Milli Parkı timsalında)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nuriyev Elşən Rəşad oğlu**
Qrantın məbləği: **10 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-1-2011-2(4)-26/08/2-M-19**
Müqavilənin imzalanma tarixi: **16 may 2012-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 iyun 2012-ci il – 1 iyun 2013-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Layihənin icrası müddətində layihə iştirakçılarının Milli Parka üç dəfə ezamiyyələri təşkil olunmuş və aşağıdakı işlər yerinə yetirilmişdir:<br>✓ Aparılmış müşahidə və tədqiqatlar əsasında Milli Parkın relyef şəraiti, onun yaranma mexanizmi-geomorfoloji proseslər xüsusilə, Kəpəz dağının uçqunları, onun miqyası və torpaq-bitki örtüyünə təsiri müəyyən edilmişdir.<br>✓ Milli Park ərazisində və ətraf ərazilərdə landşaft komplekslərinin inkişaf istiqaməti və dinamikasının ciddi fərqlənməsi, bu proseslərin torpaq-bitki örtüyünə təsiri öyrənilmişdir.<br>✓ Milli Park ərazisinin insan fəaliyyətinin təsirinə məruz qalan hissələri müəyyən edilmiş və antropogen təsirlərin təbii proseslərə təzahür dərəcəsinə görə Milli Park ərazisi üç |

| | |
|---|---|
| | zonaya bölünmüşdür.<br>✓ Milli Parkın ilkin məlumat bazasının yaradılmasına nail olunmuşdur.<br>✓ Aparılmış tədqiqatlar və laborator analizləər nəticəsində Milli Parkın torpaq örtüyü, onun strukturası öyrənilmiş və torpaqların morfogenetik diaqnostikası hazırlanmışdır.<br>✓ Milli Parkın müxtəlif xəritələri hazırlanmışdır:<br>- Milli Parkın torpaq istifadə xəritəsi (Land use map)<br>- Milli Parkın torpaq xəritəsi (ənənəvi və yeni metodlarla)<br>- Milli Parkda Maralgöl ətraflarında xarakter sahədə torpaq eroziya riski xəritəsi<br>✓ Milli Parkın dağ-meşə və dağ-çəmən zonasında təbii şəkildə baş verən eroziya və onun potensialı öyrənilmişdir.<br>✓ Ekoturizmin inkişafı üçün ilkin təkliflər planı hazırlanmışdır<br>✓ Milli Parkda bioloji müxtəlifliyin qorunmasını səmərəli təşkil və ekoturizmi inkişaf etdirmək üçün təkliflər hazırlanmışdır.<br><br>Qeyd olunan tədqiqatların yerinə yetirilməsində müşahidə, müqayisəli-coğrafi, GİS-in imkanlarından, peyk ortofotolarından, müxtəlif analitik üsullardan istifadə olunmuşdur. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Layihə planında nəzərdə tutulan işlərin 100%-i yerinə yetirinə yetirilmişdir. Lakin, bəzi gözlənilməz problemlərin və xərclərin qarşıya çıxması nəzərdə tutulan işlərin bir qədər gecikmə və ya istənilən səviyyədə yerinə yetirilməsinə mane olmuşdur. O cümlədən, layihə iştirakçılarının Milli Parkın əsas daxili zonalarına xüsusilə, Göygölün ətraflarına buraxılmaması, Milli Parkın topoqrafik məlumatlarının (Digital Elevation Model) əldə olunması ilə bağlı problemlər, sonuncu ezamiyyə müddətində əlverişsiz hava şəraiti səbəbindən lazımi yerlərə getməyin mümkün olmaması və s. göstərmək olar. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | Tədqiqatlar sayəsində əldə olunan elmi nəticələr aşağıdakılardır:<br><br>• Ilk dəfə olaraq Azərbaycanda Milli Parkın ilkin məlumat bazası və GİS xəritələri yaradılır. Milli Parkın məlumat bazası və GİS xəritələri onun sərhədlərinin və resurlarının (torpaq, bitki, topoqrrafik və s.) dəqiq qeydiyatının aparılması, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi, ekoturizm marşrutların təyin olunması və s. işlərdə geniş tətbiqi əhəmiyyət daşıyır. Eyni zamanda Milli Parkda gələcəkdə landşaft komplekslərinin daha geniş tədqiqi və monitorinq tədqiqatlarının aparılması, xüsusi mühafizə olunan ərazilərin daha dəqiq qeydiyyatının aparılması üçün xəritələr vacib materialdır. Tərtib olunmuş xəritələrin digər üstün cəhətləri dəqiqliyi, külli miqdarda informasiya tutması və istənilən dəyişiklikləri etməyin mümkün olmasıdır.<br><br>• Ilk dəfə olaraq xüsusi mühafizə olunan ərazilərdə eroziya riski Beynəlxalq miqyasda qəbul olunmuş metodika əsasında öyrənilmiş və xəritələşdirilmişdir. Eroziya riskinin məhz Milli Park ərazisində öyrənilməsi bu prosesin insan müdaxilesi olmadan-təbii şəkildə gedişini aşkar etməyə imkan verir. Bu nəticələrdən bütün regionun torpaq tədqiqatlarında istifadə etmək və müqayisə aparmaq mümkündür. |

- Kəpəz dağının üçqun baş verən zonalarında torpaqəmələgəlmə prosesinin ibtidai mərhələdə olması müəyyən edilmişdir. Elmi ədəbiyyatlarda torpaqəmələgəlmə prosesinin ibtidai mərhələdə olması çay vadiləri və yüksəkdağlıq zonalarlın qeyd olunması ilə məhtudlaşır. Lakin, tədqiqatlar göstərir ki, əlverişli iqlim şəraiti olsa da Kəpəz uçqunlarında torpaq-bitki formasiyaları ibtidai mərhələdədir. Bu faktor Milli Parkda bitki və torpaq tiplərinin evolyusiyasının bəzi xüsusiyyətlərini aşkar etməyə imkan verir.
- Milli Parkın daxili ilə bərabər ətraf ərazilərdə ekoturistik fəaliyyətlərin mümkünlüyü müəyyən edilmişdir. MP tərkibində göllər olan ərazilərə girmək qadağan olduğundan həm ərazilərdə hər hansı bir araşdırma aparıla bilməmişdir. Ərazini sadəcə sputnik fotoları çəkilmiş və ekoturizm fəliyyəti üçün ümumiləşdirilmiş təkliflər planı hazırlanmışdır.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

1. GöyGöl Milli Parkı torpaq örtüyü strukturlarının xəritələşdirilməsi və ekoloji qiymətləndirilməsi. H.Ə.Əliyevin anad. olm. 105 illik yubil. Həsr olunmuş "Ekologiya: təbiət və cəmiyyət problemləri" mövzusunda II Beynəlxalq elmi konfrans. Mater. 7-8 noyabr 2012 Bakı, Azərbaycan səh.,237-238.
2. Эколого-генетическая характеристика горно-лесеых коричневых почв Национального Парка ГейГель Азербайджана. Мат.Межд. конф. студен., аспир. и молодых ученых «Ломоносов», М., 2013
3. GöyGöl Milli Parkının Ekoturizm potensialı. C.M.Hüseynovun anadan olmasının 100 illyuinə həsr olunmuş İSSN 2202-7882 AMEA Torpaqşünaslıq və Aqrokimya jur., №22 , Bakı-2013, s. (hazırda nəşrdədir)
4. Göygöl Milli Parkı torpaq örtüyü strukturlarının ekoloji qiymətləndirilməsi. Akad. C.Ə.Əliyevin 85 illik yubil. həsr olun. Azərb.ET Əkinçilik İn-nun elmi əsər. məcmuəsi, Bakı, 2013, s. (hazırda nəşrdədir)

5 İxtira və patentlər, səmərələşdirici təkliflər

6 Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

Layihənin çərçivəsində iştirakçılarının Milli Parka üç dəfə ezamiyyələri təşkil olunmuşdir ki bunlarda Avqust 2012, Oktyabr 2012 və sonuncu ezamiyyə Aprel 2013 tarixlərində baş tutumuşdur. Ezamiyyələr Gəncə şəhərinə edilmiş və həmin müddət ərzində Göygöl Milli Parkına onun ətraf ərazilərinə səfərlər həyata keçirilmişdir.

7 Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

8 Layihə üzrə digər tədbirlərdə iştirak

9 Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq)

| | |
|---|---|
| | |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Layihə müddətində (Avqust 2012) əldə olunan cihazlar aşağıdakılardır<br>> Netbook HP<br>> GPS<br>> 4 gb USB flash daşıyıcı<br>> Canon foto kamera |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | Hər səfər zamanı Milli Parkın rəhbər işçiləri ilə əlaqə saxlanılmış Park haqqında ümumi müzakirələr aparılmışdır |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**

Həsənova Günel Cahangir qızı

____________________

*(imza)*

" __ " ________ 201_-ci il

Dəsdəmirova X.: /[signature]/

**Baş məsləhətçi**

Babayeva Ədilə Əli qızı

[signature] ____________________

*(imza)*

"10" 06 2013-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**

Nuriyev Elşən Rəşad oğlu

[signature] ____________________

*(imza)*

"10" iyun 2013-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci il üçün Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2011-2(4)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycanda milli parkların ətraf mühitə təsirinin qiymətləndirilməsi və davamlı inkişaf sənədinin hazırlanması (Göygöl Milli Parkı timsalında)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nuriyev Elşən Rəşad oğlu**
Qrantın məbləği: **10 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-1-2011-2(4)-26/08/2-M-19**
Müqavilənin imzalanma tarixi: **16 may 2012-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 iyun 2012-ci il – 1 iyun 2013-cü il**

## 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| 1 | *Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası* |
|---|---|
| | Layihənin əsas əməli nəticəsi kimi Milli Parkın GİS xəritəsinin tərtibi, davamlı inkişaf və ekoturizm potensialının müəyyən edilməsini göstərmək olar. Milli Parkın rəhbərliyi və işçi heyyəti ilə görüşlərdən bəlli oldu ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqlədiyi Milli Parkın topoqrafik xəritəsinə (Miqyas 1:25 000) əsasən onun sərhədləri əksər yerlərdə dəqiq deyil. Əslində sərhədlər xəritə üzərində mövcuddur, lakin, onun Milli Park ərazisində hansı mövqelərdən keçməsi dəqiq məlum deyil. Bu problemləri nəzərə alsaq, tərtib olunmuş xəritənin praktiki əhəmiyyəti daha da artır. Belə ki, xəritə Milli Parkın flora və faunasının mühafizəsinin keyfiyyətini artıracaq. |

| | |
|---|---|
| 2 | *Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində)* |
| | Layihənin nəticələrinin təcrübi fəaliyyəti müddətində bir çox məqalələr hazırlanmış və müxtəlif beynəlxalq jurnallara təqdim edilmişdir. Nəşr edildiyi təqdirdə nüsxələri Fonda təqdim ediləcəkdir. |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *Tədqiqat nəticələrinin istifadə perespektivləri aşağıdakı sahələrdə mümkündür:*<br>✓ *Milli Parkın torpaq örtüyü və bitki formasiyaları üzrə aparılan tədqiqatların nəticələri elmi-tədqiqat layihələri və proqramlarında istifadə oluna bilər.*<br>✓ *Milli Parkda və ətraf ərazilərdə müəyyən edilmiş ekotur marşrutları dövlət proqramlarında istifadə oluna bilər.*<br>✓ *Milli Parkın hazırlanmış ilkin məlumat bazası və xəritələri bioloji müxtəliflik və torpaq tədqiqatları üzrə beynəlxalq layihələrdə istifadə oluna bilər.* |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**

Həsənova Günel Cahangir qızı

________________

*(imza)*

“__” ________ 201_-ci il

**Baş məsləhətçi**

Babayeva Ədilə Əli qızı

________________

*(imza)*

“__” ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**

Nuriyev Elşən Rəşad oğlu

________________

*(imza)*

“10” iyun 2013-ci il